

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 103 (21.004)

*3 iyun 2014-cü il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


*Rəsmi xronika*



Azərbaycan Respublikasına rəsmi səfərə gələn İsveçrə Konfederasiyasının Prezidenti Didye Burkhalterin iyunun 2-də rəsmi qarşılanma mərasimi olmuşdur.

Rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İsveçrə Konfederasiyasının Prezidenti Didye Burkhalterin təkbətək görüşü olmuşdur.

Həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İsveçrə Konfederasiyasının Prezidenti Didye Burkhalterin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.

İyunun 2-də geniş tərkibdə görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və İsveçrə Konfederasiyasının Prezidenti Didye Burkhalter mətbuata bəyanatlarla çıxış etmişlər.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 2-də Rusiya Federasiyasının iqtisadi inkişaf naziri Aleksey Ulyukayevi qəbul etmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2014-cü il 31 may tarixli Sərəncamı ilə mülki aviasiya sahəsində səmərəli fəaliyyətinə görə bir qrup mülki aviasiya işçisi “Tərəqqi” medalı ilə təltif edilmişdir. Təltif olunanlar arasında Naxçıvan Beynəlxalq Hava Limanının da əməkdaşı vardır.

**“Tərəqqi” medalı ilə**

Cəfərov İlham Müzəffər oğlu

## Naxçıvanda 1 İyun – Uşaqları Beynəlxalq Müdafiə Günü münasibətilə tədbir keçirilmişdir

Mayın 31-də Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında 1 İyun – Uşaqları Beynəlxalq Müdafiə Günü münasibətilə tədbir keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov teatrın foyesində uşaqların əl işlərindən və uşaq mövzusunda muxtar respublikada nəşr olunmuş kitablardan ibarət sərgiyə baxmışdır.

Bildirilmişdir ki, muxtar respublikada uşaqların istedadlarının üzə çıxarılması, onların asudə vaxtlarının səmərəli təşkili diqqət mərkəzində saxlanılır. Ümumtəhsil məktəblərində, məktəbəqədər və məktəbdənkənar tərbiyə müəssisələrində milli dəyərlərimiz, qədim adət-ənənələrimiz, xalq sənəti nümunələrimiz yetişməkdə olan gənc nəslə ətraflı öyrədilir.

Sərgidə Naxçıvan Qızlar Liseyinin “Xalçaçılıq” və “Tikiş-toxuculuq” dərnəyinin üzvləri tərəfindən hazırlanmış toxuculuq nümunələri, Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq və Texniki Yaradıcılıq mərkəzlərinin xüsusi istedada malik olan şagirdlərinin muxtar respublikamızın tarixi abidələrini, dövlət atributlarını, təbiət mənzərələrini əks etdirən bədii tikmə və dekorativ tətbiqi sənət nümunələri, müxtəlif maketlər maraqla qarşılanmışdır. Uşaq ədəbiyyatını əks etdirən guşədə isə uşaqların intellektual inkişafına, onların dünyagörüşünün formalaşmasına xidmət edən və müxtəlif dövrlərdə çap olunan ədəbiyyatlar, bu il nəşr olunan “Təmsillər”, “Poema və pyeslər”, “Şeir və hekayələr” kitabları nümayiş etdirilirdi.



Sərgi ilə tanışlıqdan sonra keçirilən tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov tədbir iştirakçılarını Uşaqları Beynəlxalq Müdafiə Günü münasibətilə təbrik edərək demişdir: “Uşaqları qorumaq, onları müdafiə etmək hər bir dövlətin qarşısında duran əsas vəzifədir. O cəmiyyət öz sabahına ümidlə baxa bilər ki, gənc nəslin yetişməsi qayğısına qalsın, bununla bağlı vəzifələri yerinə yetirsin. Bu gün ölkəmizdə uşaq hüquqlarının qorunması istiqamətində ardıcıl tədbirlər görülür. Hələ ötən əsrin 70-ci illərindən başlayaraq ulu öndərimizin rəhbərliyi ilə Azərbaycanda tikilən məktəblər, məktəbdənkənar və məktəbəqədər tədris müəssisələri, kitabxanalar xalqımızın və ölkəmizin gələcəyinə hesablanmış tədbirlər idi. Müstəqillik dövründə isə ümummilli liderimizin rəhbərliyi ilə Azərbaycanda dövlət uşaq siyasətinin əsası qoyulmuş, uşaq hüquqlarının qorunması sahəsində zəngin qanunvericilik bazası yaradılmışdır”.

Ali Məclisin Sədri demişdir: “Azərbaycanda və onun Naxçıvan Muxtar Respublikasında uşaqlara xüsusi diqqət və qayğı göstərilir. Uşaqların əqli inkişafı, onların cəmiyyətin layiqli üzvü kimi yetişməsi qarşıda duran əsas vəzifədir. 1995-ci ildən ötən dövr ərzində bu vəzifələrin icrası diqqətdə saxlanmış, 197 məktəb binası, 18 uşaq bağçası, 40 idman obyekti tikilərək və yenidən qurularaq istifadəyə verilmişdir. Ümumtəhsil məktəblərinin maddi-texniki bazası gücləndirilmiş, təhsil ocaqları müasir informasiya texnologiyaları ilə təmin olunmuş, elektron kitabxanalar yaradılmışdır. Hazırda muxtar respublikada Uşaq Kitabxanası, Dövlət Uşaq Teatrı, Uşaq Filarmoniyası, Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzi, şahmat və uşaq musiqi məktəbləri fəaliyyət göstərir. Muxtar respublikada məhdud fiziki imkanlı uşaqlar da hərtərəfli qayğı ilə əhatə olunmuşdur. Bu kateqoriyadan olan uşaqların cəmiyyətə inteqrasiyası üçün lazımi şərait yaradılmış, Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində audio və elektron kitabxana istifadəyə verilmişdir. Bununla yanaşı, Uşaq Bərpa Mərkəzinin də fəaliyyəti gücləndirilmiş, uşaqların reabilitasiyası üçün bütün şərait yaradılmışdır”.

“Uşaqlarla iş gündəlik fəaliyyət və peşəkarlıq tələb edir. Çalışmaq lazımdır ki, gələcəyimiz olan uşaqlar, ilk növbədə, xalqımıza xas olan milli dəyərlər ruhunda tərbiyə olunsunlar, təhsilli, vətənpərvər vətəndaşlar kimi yetişsinlər”, – deyən Ali Məclisin Sədri aidiyyəti orqanlara konkret tapşırıqlar verərək demişdir: “Uşaq hüquqlarının qorunması məqsədilə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi maarifləndirici tədbirləri gücləndirməli, təbliğat işinin nəticəli olmasına çalışmalı, uşaqlar haqqında elektron məlumat bankının yaradılmasını başa çatdırmalıdır. Təhsil Nazirliyi ümumtəhsil məktəblərində uşaqların hərtərəfli təhsili ilə yanaşı, onların vətənpərvərlik ruhunda tərbiyəsinə də diqqəti artırmalı, şagirdlərdə milli dəyərlərimizə sahiblik hissi formalaşdırılmalıdır”.

Qeyd olunmuşdur ki, uşaqların sağlamlığının qorunması ən ümdə vəzifələrdəndir. Səhiyyə Nazirliyi mütəmadi olaraq uşaq əhalisinin tibbi yoxlamadan keçirilməsini təmin etməli, profilaktik tədbirlər görülməli, səhiyyə ocaqlarında uşaqlara göstərilən tibbi xidmətin keyfiyyəti yüksəldilməlidir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyası və sosial müdafiəsini daim diqqət mərkəzində saxlamalı, onların cəmiyyətə inteqrasiyası, təhsili və asudə vaxtlarının səmərəli təşkili üçün aidiyyəti orqanlarla birlikdə tədbirlər görməlidir. Uşaqların məktəbdənkənar vaxtlarının, xüsusilə də yay tətili dövrünün səmərəli təşkili üçün Gənclər və İdman Nazirliyi Təhsil Nazirliyi ilə birlikdə tədbirlər planı hazırlamalı, uşaqların bədən tərbiyəsi və idmanla, eləcə də şahmatla məşğul olmaları xüsusi nəzarət qaydasında həyata keçirilməlidir. Yazıçılar Birliyi uşaqların zehni inkişafına və onların vətənpərvərlik tərbiyəsinə xidmət edən yeni əsərlərin yaradılmasına nail olmalı, uşaq ədəbiyyatının inkişafı sahəsində yaradılmış dönüş davamlı xarakter daşımalıdır.

Ali Məclisin Sədri qeyd etmişdir ki, Təhsil, Mədəniyyət və Turizm nazirlikləri Rəssamlar Birliyi ilə birlikdə məktəbdənkənar müəssisələrdəki və uşaq incəsənət məktəblərindəki rəsm dərnəklərinin fəaliyyətini gücləndirməli, istedadlı uşaqların əsərlərindən ibarət sərgilər təşkil edilməlidir. Mədəniyyət və Turizm Nazirliyi istedadlı uşaqların aşkara çıxarılması və onlarla işin təşkili üçün fəaliyyətini gücləndirməlidir. Kütləvi informasiya vasitələrində uşaqların əqli inkişafına xidmət edən teleradio verilişləri və qəzet materialları hazırlanmalı, televiziya, radio və qəzetlərdə ayrıca uşaq və gənclər redaksiyaları fəaliyyət göstərməlidir. Uşaqlara qayğı yalnız dövlət qurumlarının vəzifəsi olmamalıdır. Bu, hər bir vətəndaşı düşündürməli, cəmiyyətin bütün təbəqələri dövlət uşaq siyasətinin həyata keçirilməsinə öz töhfəsini verməlidir. Vətəndaş cəmiyyəti təsisatları, elmi-tədqiqat institutları, müxtəlif ictimai təşkilatlar uşaq siyasətinin həyata keçirilməsində yaxından iştirak etməlidirlər.





*Ardı 2-ci səhifədə*





Ali Məclisin Sədri bundan sonra da uşaq və gənclərin yaxşı təhsil alması və onların sağlam mənəvi mühitdə böyümələrinə səy göstərilməsinin vacibliyini bildirmiş, bu yolda aid təşkilatlara uğurlar arzulamış, çıxışını ümummilli liderimizin yetişməkdə olan gənc nəslə müraciəti ilə tamamlamışdır: ***“Əziz uşaqlar, Azərbaycanın gələcəyi sizinlə bağlıdır, sizin istedadınızla, gələcək fəaliyyətinizlə bağlıdır. Siz bizim sabahımızsınız, bizim gələcəyimizsiniz. Siz bizim hər birimizin, bütün Azərbaycan xalqının xoşbəxtliyisiniz”.***

Tədbirin bədii hissəsində ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının 91-ci ildönümünə həsr olunmuş şeir müsabiqəsinin qalibləri Azərbaycana, Naxçıvana və ulu öndərə həsr olunmuş şeirləri bədii qiraət etmişlər. Naxçıvan Muxtar Respublikası Estetik Tərbiyə Mərkəzinin, Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin vokal və rəqs qruplarının, Culfa Şəhər Uşaq Musiqi Məktəbinin VI sinif şagirdi, gənc istedad Xaliq Həsənovun ifası, Naxçıvan şəhərindəki uşaq bağçalarının rəqs qruplarının, Naxçıvan Dövlət Uşaq Filarmoniyasının vokal qrupunun və skripkaçalanlar ansamblının, Naxçıvan Şəhər 2 nömrəli Uşaq Musiqi Məktəbinin nağaraçalanlar ansamblının və xor kollektivinin, “Şərur qönçələri” yallı qrupunun çıxışları alqışlarla qarşılanmışdır.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## “Heydər Əliyev lektoriyası”nın növbəti məşğələsi



***Dünən Naxçıvan şəhərindəki Heydər Əliyev adına tam orta məktəbdə “Heydər Əliyev lektoriyası”nın “Heydər Əliyev və Azərbaycan” mövzusunda növbəti məşğələsi keçirilmişdir. 15 İyun – Milli Qurtuluş Gününə həsr olunmuş lektoriya iştirakçıları əvvəlcə məktəbin həyatında ucaldılmış ulu öndər Heydər Əliyevin abidəsi önünə tər çiçəklər düzmüşlər. Məktəbin zalında davam etdirilən lektoriyanı giriş sözü ilə məktəbin direktoru, Azərbaycan Respublikasının əməkdar müəllimi Namiq Məmmədov açaraq keçirilən tədbirin məqsəd və mahiyyətindən danışmışdır.***

Tədbirdə Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının sədri, tarix üzrə fəlsəfə doktoru, dosent Elman Cəfərlinin “Heydər Əliyev və Azərbaycan” mövzusunda məruzəsi dinlənilmişdir. Qeyd olunmuşdur ki, ümummilli liderimiz Heydər Əliyevin 1993-cü il iyunun 15-də ölkəmizdə yenidən siyasi hakimiyyətə qayıdışı müstəqil Azərbaycanın qurtuluş tarixinin başlanğıcıdır. 1993-cü il iyunun 15-də ümummilli liderimiz Heydər Əliyevin ölkəmizdə yenidən siyasi hakimiyyətə qayıdışı ilə tariximizə yazılan Milli Qurtuluş Gününün bəhrəsi olaraq, Azərbaycan inkişaf və tərəqqi yoluna çıxmış, ölkəmiz dünya dövlətləri sırasında öz layiqli yerini tutmuşdur. Müstəqil Azərbaycanda qazanılan hər bir nailiyyət ümummilli liderimizin müəyyənləşdirdiyi siyasi xəttin bəhrəsidir. 2003-cü ildən etibarən hörmətli Prezidentimiz tərəfindən uğurla davam etdirilən bu siyasi xətt ölkəmizin siyasi və iqtisadi gücünü daha da artırmışdır.

Məşğələdə məktəbin müəllimləri Şəfiqə Əhmədova və Rahilə Seyidova çıxış etmişlər. Çıxışlarda qeyd olunmuşdur ki, Azərbaycanımızın ayrılmaz hissəsi olan qədim Naxçıvan sürətli inkişaf yolundadır. Muxtar respublikamızda Heydər Əliyev yolunun bütün sahələrdə böyük uğurla davam etdirilməsi nəticəsində diyarımız gündən-günə çiçəklənir, həyata keçirilən nəhəng quruculuq tədbirləri Naxçıvanın hərtərəfli inkişafını təmin edir. Bütün bunlar onu göstərir ki, muxtar respublika əhalisi ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlı olan sabitliyə və quruculuq işlərinə öz layiqli töhfəsini verməyə, nailiyyətləri daha da artırmağa çalışır. Azərbaycan və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan ona görə inkişaf edir ki, ümummilli liderimizin yolu ilə gedir. Bütün bunlar isə ulu öndər Heydər Əliyev yoluna sədaqətin bəhrəsi, Milli Qurtuluşdan başlanan inkişafın davamıdır.

✍ **Sara ƏZİMOVA**

***Mayın 31-də Naxçıvan şəhərindəki 3 nömrəli tam orta məktəbdə VII-VIII sinif şagirdləri arasında rus dili və ədəbiyyatı üzrə ümumrespublika olimpiadası keçirilmişdir. Olimpiadanın açılış mərasimində Rusiya Federasiyasının Azərbaycandakı səfiri Vladimir Doroxin, “Rossotrudniçestvo” Agentliyinin Azərbaycandakı rəhbəri Valenten Denisov, Azərbaycanın Rusdilli Təhsil Müəssisələri Müəllimləri Assosiasiyasının sədri Lyubov Yakunina, Rusiya İnformasiya və Mədəniyyət Mərkəzinin əməkdaşları Aleksandra Ponomaryova və Dmitri Ponomaryov iştirak etmişlər.***

## Naxçıvan şəhərində rus dili və ədəbiyyatı üzrə ümumrespublika olimpiadası keçirilmişdir



Məktəbin direktoru Ülkər Möhsümova qonaqları rusdilli məktəbdə görmələrindən məmnun olduqlarını bildirmişdir.

Məktəbin dərs hissə müdiri Lyudmila Dünyamalıyeva təhsil ocağının tarixi və keçdiyi inkişaf yolu barədə ətraflı məlumat vermişdir.

Rusiya Federasiyasının Azərbaycandakı səfiri Vladimir Doroxin Naxçıvanda olmasından məmnunluğunu bildirmişdir. Səfir diqqətə çatdırmışdır ki, artıq Azərbaycanın ayrı-ayrı bölgələrində 12 belə olimpiada keçirilmişdir. Naxçıvan şəhərində keçirilən olimpiada isə sonuncudur.

Vladimir Doroxin qeyd etmişdir ki, Azərbaycanda, eləcə də Naxçıvan Muxtar Respublikasında rus dilində məktəblərin fəaliyyət göstərməsi sevindirici haldır. Azərbaycan məktəblərində rus dilinin tədris olunması iki ölkə arasında dostluq və qardaşlıq münasibətlərinin, qarşılıqlı mədəni inkişafın göstəricisidir. Səfir vurğulamışdır ki, bu gün Azərbaycanda bütün sahələr kimi, təhsil də sürətlə inkişaf edir. Bununla bərabər, hər iki dövlət arasında 200 illik tarixi olan mədəni əlaqələr də sürətlə inkişaf edir və hazırda qarşılıqlı münasibətlərimiz yüksək səviyyədədir.

Tədbirin ədəbi-bədii hissəsində məktəbin şagirdlərinin ifasında Azərbaycan və rus dillərində şeirlər səsləndirilmiş, hər iki xalqın milli rəqsləri ifa olunmuşdur. Sonra olimpiada başlamışdır.

Səfir və onunla birlikdə gələn qonaqlar məktəbdə təşkil olunmuş məzuniyyət tədbirində də iştirak etmişlər.

Olimpiada Rusiya Federasiyasının Azərbaycandakı Səfirliyi, “Rossotrudniçestvo” Agentliyinin Azərbaycandakı nümayəndəliyi, Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Azərbaycanın Rusdilli Təhsil Müəssisələri Müəllimləri Assosiasiyasının birgə təşkilatçılığı ilə keçirilmişdir. Olimpiadanın nəticələri iyun ayının 6-da elan ediləcəkdir.

Olimpiadanın əsas məqsədi bu il Rusiyada keçiriləcək Azərbaycan Mədəniyyəti Günləri və görkəmli rus şairi Mixail Lermontovun 200 illik yubileyi ərəfəsində şagirdlərin biliklərini artırmaq və iki ölkə arasındakı ədəbi-mədəni əlaqələrin inkişafına dəstək olmaqdır.

**Xəbərlər şöbəsi**

## Naxçıvan Beynəlxalq Hava Limanında mülki aviasiya işçilərinin peşə bayramı günü qeyd olunub

***İyunun 2-də Naxçıvan Beynəlxalq Hava Limanında mülki aviasiya işçilərinin peşə bayramı günü münasibətilə tədbir keçirilmişdir. Tədbirdə çıxış edən hava limanının direktoru Mənşur Gülməmmədli bildirmişdir ki, Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 may tarixli Sərəncamına əsasən, 2 iyun hər il ölkəmizdə mülki aviasiya işçilərinin peşə bayramı günü kimi qeyd edilir.***

“Azərbaycanın əsas ərazisindən təcrid olunmuş şəraitdə yaşayan Naxçıvanın nəqliyyat problemlərinin həllinə ümummilli liderimiz xüsusi diqqət yetirmiş, hələ 1976-cı ildə Naxçıvanda hava limanı tikilib istifadəyə verilmişdi. 1800 metrlik uçuş-enmə zolağı olan bu hava limanı o dövrün tələblərinə hesablanmışdı”, – deyən Mənşur Gülməmmədli bildirmişdir ki, ötən əsrin 90-cı illərində Naxçıvanı Azərbaycanın əsas hissəsi ilə bağlayan bütün nəqliyyat-kommunikasiya əlaqələri kəsiləndən, muxtar respublika Ermənistan tərəfindən blokadaya salınandan sonra sərnişin və yük daşınması kiçiktutumlu təyyarələri qəbul etmək imkanı olan bu hava limanı vasitəsilə həyata keçirilirdi. Bu dövrdən etibarən Azərbaycanın digər bölgələri ilə əlaqənin yeganə mümkün forması olan hava yolu yerli əhali üçün həyati əhəmiyyət daşımağa başladı.

Qeyd olunmuşdur ki, ümummilli liderimiz Heydər Əliyev Naxçıvan Hava Limanı ilə bağlı iki dəfə qərar qəbul etmişdir. 1992-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində çalışan dahi şəxsiyyət limanın uçuş-enmə zolağının yenidən qurulması təşəbbüsünü irəli sürmüş və bu iş yerli mütəxəssislər cəlb olunmaqla qısa müddət ərzində həyata keçirilmiş, uzunluğu 3300 metr olan uçuş-enmə zolağı istifadəyə verilmişdir. O vaxta qədər hava limanı üçüncü dərəcəli təyyarələri qəbul edirdisə, uçuş-enmə zolağının yenidən qurulması nəticəsində hava limanı “TU-154” tipli təyyarələri qəbul etməyə başladı. Gün ərzində 800-1000 nəfər hava limanının xidmətindən istifadə etmək imkanı əldə etdi. Hava nəqliyyat növünə tələbatın artması Naxçıvanda daha müasir hava limanının tikilməsini zərurətə çevirmişdi. Bunu nəzərə alan ulu öndər 2002-ci il avqustun 11-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində müşavirə keçirmiş və bu məsələnin həlli qərara alınmışdır. 2002-ci il oktyabr ayının 1-də inşasına başlanan limanda tikinti-quraşdırma işləri ən müasir tələblər səviyyəsində həyata keçirilmişdir.



Mənşur Gülməmmədli demişdir ki, bu gün Naxçıvan Beynəlxalq Hava Limanından ölkəmizin şəhərləri ilə yanaşı, İstanbul və Moskva şəhərlərinə cədvəl üzrə müntəzəm uçuşlar həyata keçirilir. Hava limanının gələcək perspektiv planında uçuşların sayının və əhatə dairəsinin genişləndirilməsi nəzərdə tutulmuşdur.

Bu il Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Naxçıvan Muxtar Respublikasına səfəri zamanı Naxçıvan Beynəlxalq Hava Limanı üçün yeni inzibati binanın açılışını etmişdir. Müasir səviyyədə inşa olunan binada işçilərin səmərəli fəaliyyəti təmin edilmişdir. Burada hava gəmilərinə texniki xidmət sahəsi, daşımaların təşkili, aviasiya təhlükəsizliyi, hava hərəkətinin idarə edilməsi, aviasiya-metrologiya və digər aidiyyəti xidmətlər üçün hərtərəfli şərait vardır. Binada akt və konfrans zalları, həmçinin işçilərin xarici dillərə yiyələnmələri üçün tədris otağı yaradılmışdır.

Yeni inzibati bina istifadəyə verildikdən sonra Naxçıvan Beynəlxalq Hava Limanının birinci və ikinci mərtəbələrinin gəliş və təyyarələrə minik zalları üçün ayrılması nəzərdə tutulmuşdur. Bu məqsədlə aerovağzal binasında yenidənqurma işləri aparılır. Burada beynəlxalq aviasiyada istifadə olunan ən son elmi-texniki yeniliklər tətbiq ediləcək, ikinci mərtəbədən teleskopik traplar vasitəsilə hava gəmilərinə miniklər təşkil ediləcəkdir. Aerovağzal binasının yenidən qurulması və bərpasından sonra hava limanının sərnişin dövriyyəsi saatda 450-500 nəfərə çatacaqdır.

Qeyd olunmuşdur ki, muxtar respublikamızda mülki aviasiya işçilərinə böyük diqqət və qayğı göstərilir, onların əməkhaqları artırılır, fərqlənənlərin əməyi qiymətləndirilir. Naxçıvan Beynəlxalq Hava Limanının şəxsi heyəti uçuşların təhlükəsizliyini təmin etmək və sərnişinlərə nümunəvi xidmətin səviyyəsini yüksəltmək üçün səylərini daha da artırır.

Sonra Naxçıvan Beynəlxalq Hava Limanının direktor müavini Hikmət Əhmədovun, Hava hərəkətinin idarə edilməsi xidmətinin rəisi Bağır Rəhimovun, Maliyyə şöbəsinin rəisi Rəfael İbrahimovun, Aviasiya təhlükəsizlik xidmətinin rəis əvəzi Toğrul Qasımovun çıxışları olmuşdur.

Tədbirdə dəvət olunmuş veteran aviatorlar peşə bayramı münasibətilə mülki aviasiya işçilərini təbrik edərək onlara gələcək fəaliyyətlərində uğurlar arzulamışlar.

Sonda bir qrup aviasiya işçisinə Naxçıvan Beynəlxalq Hava Limanının fəxri fərmanları təqdim olunmuşdur.

✍ **Muxtar MƏMMƏDOV**

*Tarix göstərir ki, iqtisadiyyatın bütün sahələrinin və əhalinin bütün təbəqələrinin maraqlarını ödəyən stabil inkişaf, ilk növbədə, cəmiyyətdə bərqərar edilmiş sosial-siyasi sabitliklə bərabər, eyni zamanda davamlı olaraq həyata keçirilən məqsədyönlü idarəetmədən asılıdır. Bu idarəetmə bir-biri ilə zəncirvarı əlaqələrlə bağlı olub, məntiqi ardıcıllıqla bir-birini tamamlayan elə qərarlar sistemidir ki, onların vaxtından tez və yaxud çox gec verilməsi arzuedilən məqsədlərə çatmaqda çətinlik yarada bilər. Bu baxımdan iqtisadi inkişaf məsələləri həvalə olunmuş hər bir kəsin cəmiyyətin artan tələbatlarına cavab verə biləcək səviyyədə öz işini qurması və onu daim yeniləşdirə bilməsi müasir idarəetmə sistemi qarşısında dayanan ən mühüm keyfiyyət tələblərindəndir.*

# Davamlı iqtisadi inkişaf səmərəli idarəetmədən asılıdır

İnsan həyatı, onun sosial-mədəni fəaliyyəti çox mürəkkəbdir və onun daim olaraq inkişafa ehtiyacı vardır. Bu inkişafın təmin olunması isə iqtisadiyyat deyilən və insanları hələ icma quruluşu dövründən düşündürən məsələlərin ardıcıl həlli ilə əlaqədardır. Yəni insan var olduqca, iqtisadiyyat da olacaq və onun problemləri də insanların daimi qayğısına çevriləcəkdir. Ancaq bu da var ki, inkişaf sürətləndikcə, belə məsələlərin də həlli yolunu təkmilləşdirən, onları sürətləndirən yeni mərhələyə qədəm qoyuruq. Başqa sözlə, hazırda yaponlar robot, robotlar isə avtomobillər istehsal etdiyi kimi, cəmiyyətdə də iqtisadi inkişaf məsələlərini həll etmək üçün hələ yüzilliklər öncəsindən idarəetmə institutları yaradılmağa başlanılmış, bu vəzifələr onlara həvalə edilmişdir. Burada da məqsəd iqtisadi inkişaf məsələlərinə xaotik hərəkətlər imperativlərindən deyil, cəmiyyətin real tələbatlarından doğan qanunauyğunluqlar prizmasından yanaşaraq onların optimal həllinə yollar axtarmaqdır. Bu da, öz növbəsində, cəmiyyətdə mövcud olan iqtisadi inkişaf modelinin tələblərinə adekvat cavab verə bilən çevik idarəetmə institutları və onların bacarıqlı kadrları ilə mümkündür.

Hazırda müasir Azərbaycan cəmiyyəti öz aydın milli ideologiyası, uzaqgörən, qətiyyətli lideri ilə inkişafının yeni mərhələsinə qədəm qoymuşdur. Müstəqilliyin əldə olunması ilə ötən müddət ərzində xalqımızın ümummilli lideri Heydər Əliyevin müəyyənləşdirdiyi iqtisadi inkişaf strategiyasının müvəffəqiyyətlə dəstəklənərək uğurlu nəticələr əldə edilməsi artıq Azərbaycanda inkişafın yeni, daha dəqiq vektorlarını müəyyən etməyə imkan vermişdir. İlk dövrlərdə yalnız mətin siyasi iradə hesabına üzləşdiyi çətinlikləri aşaraq etibarlı partnyor kimi dünya iqtisadiyyatına inteqrasiya olunmaq yolunu tutmuş müstəqil Azərbaycan indi artıq öz iqtisadi potensialı ilə qlobal rəqabətqabiliyyətlilik reytinqində yüksək pillələrə doğru irəliləməkdədir. Bu isə getdikcə güclənən Azərbaycanda dövrün tələblərinə cavab verən iqtisadi idarəetmə mexanizminin də əhəmiyyətini artırır.

Nədir belə idarəetmə və onun qarşısına hansı vəzifələr qoyulmuşdur? Məlumdur ki, müasir menecment, hər şeydən əvvəl, cəmiyyətin ən dəyərli resursu olan insan kapitalından səmərəli istifadə etməklə getdikcə artan tələbatların daha rasional qərarlar hesabına ödənilməsini özündə ehtiva edən bir idarəetmədir. Bu, elə bir sınaqdan çıxmış idarəetmə anlayışıdır ki, onun gücü ilə bu gün, demək olar ki, heç bir təbii ehtiyatı olmayan ölkələr öz sənayeləşmə yolunu qət etmiş, əhalisinin rifah göstəriciləri ilə dünyada seçilən bir səviyyəyə gəlib çatmışlar. İdarəetmədə çevik mexanizmlərin qurulması, yüksək texnologiyaların çox qısa müddət ərzində istehsala tətbiqi, insanların asudə vaxtlarının səmərəli təşkili, elektron idarəetmə üsulları ilə işə nəzarətin təşkili və bürokratik əngəllərə yol verilməməsi, yüksək maliyyə və sığorta intizamı, iş yerlərində əməyin təhlükəsizliyinin və sosial müdafiənin düzgün təşkili və sair kimi insanlarla bərabər, dövləti də daimi olaraq düşündürən məsələlərin uğurlu həlli müasir iqtisadi idarəetmənin əldə etdiyi ən mühüm nailiyyətlərdəndir. Bu baxımdan bazarın sərbəst tənzimləmə alətlərindən əlavə, iqtisadiyyatın dövlət tənzimləməsi yolu ilə həllivacib məsələlər istiqamətində hazırlanan dövlət proqramları və verilən qərarlar, hər şeydən əvvəl, ümumi makroiqtisadi tarazlığın qorunması və real sektorun bundan maksimum dərəcədə faydalanması məqsədini güdür. Bu isə hazırkı şəraitdə mövcud iqtisadi vəziyyəti dərindən təhlil edə bilən, gəldiyi real nəticələri ümumiləşdirərək onları lazımi pillələrə çatdıra bilən iqtisadçı kadrlara sahib idarəetmə institutu olmadan mümkün deyildir. Çünki ölkəmiz artıq dünya iqtisadiyyatının bir parçasıdır və Azərbaycanda gedən iqtisadi proseslər, dünyanın inkişaf etməkdə olan digər ölkələrində olduğu kimi, lazımi tənzimləmə ilə idarə edilir.

İqtisadi inkişafın idarəolunması həmişə öz aktuallığını qoruyur. Tanınmış iqtisadçıların belə bir fikri maraqlıdır ki, iqtisadiyyatda tənzimləmə məhz işlərin yaxşı getdiyi vaxtda daha vacibdir. Çünki digər vaxtlarda həyata keçirilən hər hansı tənzimləmə tədbiri ən yaxşı halda, yalnız bərpaetmə məqsədi daşıyır. Ona görə də iqtisadiyyatda bugünkü nəticələrlə kifayətlənməyib sabah daha da yaxşıya doğru irəliləmək istəyiriksə, onda tapşırılmış vəzifələri bir an belə unutmadan aparılan operativ idarəetmə dünya iqtisadiyyatının hansı vəziyyətdə olmasına baxmayaraq, həmişə öz müsbət nəticəsini verəcəkdir. Bu vəzifələr isə çoxdur və onlar getdikcə cəmiyyətin digər sosial-mədəni tələbatları ilə daha da genişlənir. Misal üçün, bu gün ölkəmizdə və onun tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında elmtutumlu sənayeləşmə istiqamətində aparılan islahatlar sayəsində artıq 10 il əvvəlkindən çox-çox fərqli düşüncəyə və idarəetmə bacarığına sahib menecerlərə ehtiyac yaranmışdır. İndi muxtar respublikamız innovativ və ixracyönümlü sənaye istehsalı yoluna qədəm qoyduğu bir dövrdə bu, daha da artıq əhəmiyyət kəsb edir. Müasir tələblər çərçivəsində muxtar respublikamızda sənaye parkının yaradılması yerli resurslardan səmərəli istifadə etməklə rəqabətqabiliyyətli son sənaye məhsulu istehsalının və yüksək əlavə dəyər yaradan istehsal sahələrinin təşkil olunması vəzifəsini qarşıya qoymuşdur. Artıq Naxçıvanda yaradılan hər yeni istehsal müəssisəsi daxili bazar çərçivəsindən çıxıb qlobal rəqabətə qoşulduqca qarşıda yeni üfüqlər açılmaqla bərabər, dünya və Avropa standartları səviyyəsində məhsullar istehsal edilməsi məsələsi də öz aktuallığını ortaya qoyur. Çünki bu gün Naxçıvan brendi ilə xarici bazarlarda özünə seqment tutan yüksəkkeyfiyyətli, ekoloji təmiz ərzaq və qeyri-ərzaq məhsullarının istehsalı və ixracı üçün hərtərəfli şərait yaradılmışdır. Bütün bunlarla bərabər, muxtar respublikamızın zəngin turizm potensialından dünya bazarı qiymətləri ilə istifadəsinə imkan verəcək rekreasiya kompleksinin yaradılması da bu istiqamətdə qarşıya qoyulmuş mühüm vəzifələrdəndir.

Azərbaycan cəmiyyəti islahatlar yolunda addımladıqca dünyadakı yeniliklər də həyatımızın bütün sahələrinə sürətlə daxil olmaqdadır. İnformasiya-kommunikasiya texnologiyalarının və internetin geniş tətbiqi sayəsində idarəetmə sahəsində də inqilabi dəyişikliklər baş verməkdədir. İndi əvvəlki dövrlərdən fərqli olaraq, iqtisadi fəaliyyətin müxtəlif sahələrində elektron idarəetmə metodlarından geniş istifadə edilir, informasiyanın bir saniyə içində etibarlı və dəqiq mübadiləsi həyata keçirilir. Bu isə ölkəmizdə və muxtar respublikamızda iqtisadi idarəetmədə daha çevik üsullara keçməyə, iqtisadiyyatla elm və təhsilin əməkdaşlığını təmin etməyə, dəyəri yüksək elmi nəticələrin iqtisadiyyatda uğurlu tətbiqinə imkan verir. Bu baxımdan müasir idarəetmə qarşısına qoyulan xalq təsərrüfatının, demək olar ki, bütün sahələri arasında korporativ əlaqələrin yaradılması vəzifəsi xüsusi əhəmiyyət daşıyır. Bu vəzifə isə, şübhəsiz, yüksək kommunikativ keyfiyyətlərə malik, dünya və region bazarlarını dərindən təhlil edib, cari vəziyyətdən yaxşı baş çıxaran menecerlərsiz mümkün deyildir. Dövlətin iqtisadi siyasətini bütün incəlikləri ilə qavraya bilən, onu işində tətbiq edib partnyorlarından da bunu tələb etməyi bacaran insan resurslarımız isə, heç şübhəsiz, ölkəmizin və muxtar respublikamızın gələcəkdə daha da çiçəklənməsi yolunda dövlətin ən güclü dayağı olacaqdır. Çünki bu yol müstəqil ölkəmizin, Naxçıvanımızın güclənməsi yoludur.

✍ **Əli CABBAROV**

*“Mineral suların təbii muzeyi” adlandırılan Naxçıvan Muxtar Respublikasında 200-dən çox mineral su mənbələri mövcuddur. Onlardan biri də Şahbuz rayonunun Badamlı qəsəbəsi ərazisində çağlayan eyniadlı mineral sudur ki, bu təbiət möcüzəsi bir çox xüsusiyyətləri ilə qiymətlidir. İlk növbədə, əvəzsiz süfrə suyu olan “Badamlı” həm də müalicəvi əhəmiyyətə malikdir. Belə ki, ateroskleroz, ürək, xərçəng, diabet, mədə yarası, bronxial-astma, pnevmoniya xəstəlikləri, eyni zamanda immunitetin zəifləməsi, infeksiyalara yoluxma, müxtəlif orqanların, o cümlədən dərinin iltihabı zamanı müalicə məqsədilə istifadə edilir.*

# “Gəmiqaya Mineral Sular” Məhdud Məsuliyyətli Cəmiyyətinin ixrac potensialı artıb






Məlumat üçün qeyd edək ki, “Badamlı” mineral bulağı ötən əsrin ortalarında aşkar edilmişdir. 1947-ci ildə burada kiçik müəssisə yaradılaraq ilk dəfə əl üsulu ilə cəmi 30-40 litr su istehsalına başlanılmışdır. Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründə müəssisənin fəaliyyəti genişləndirilmiş, yeni texnoloji avadanlıqlar tətbiq olunmaqla istehsal gücü daha da artırılmışdır. Ötən əsrin 90-cı illərinin əvvəllərində ölkəmizdə baş verən hadisələr, iqtisadi tənəzzül bu müəssisənin də fəaliyyətinin dayanmasına səbəb olmuşdur. Ulu öndər Heydər Əliyevin 1993-cü ildə Azərbaycanda yenidən siyasi hakimiyyətə qayıdışından sonra yaradılan sabitlik və iqtisadi inkişaf bütün sahələr kimi, sahibkarlıq fəaliyyətinin də genişləndirilməsinə böyük imkanlar açmışdır. Muxtar respublikada sahibkarlıq mühitinin formalaşdırılması, iş adamları üçün əlverişli şəraitin yaradılması “Badamlı” mineral suyunun da əvvəlki şöhrətini özünə qaytarmış, 2004-cü ildə özəlləşdirilən müəssisədə keyfiyyətli məhsul istehsalına başlanılmışdır. “Gəmiqaya Mineral Sular” Məhdud Məsuliyyətli Cəmiyyəti müəssisəyə bazar iqtisadiyyatının tələblərinə uyğun yeni həyat vermişdir.

Naxçıvan şəhərində 2,1 hektar ərazini əhatə edən və ümumi sahəsi 9590, istehsal sahəsi isə 3600 kvadratmetr olan yeni istehsal müəssisəsi ölkə başçısı cənab İlham Əliyevin 2009-cu ilin 3-4 avqust tarixlərində muxtar respublikaya səfəri zamanı istifadəyə verilmişdir. Burada ikimərtəbəli inzibati bina tikilmiş, yeməkxana, istehsal və digər yardımçı sexlər, anbar, karbon qazı və kompressor stansiyası yaradılmışdır. Müasir texnoloji avadanlıqlarla təchiz olunmuş zavod daxili bazarın tələbatına uyğun keyfiyyətli məhsul istehsal edərək rəqabətqabiliyyətli müəssisəyə çevrilmişdir.

Müəssisəyə iki boru xətti çəkilmişdir. Qazlı mineral süfrə suyunu Badamlı yatağından nəql edən xəttin uzunluğu 25 kilometr, qazsız süfrə suyu istehsalı üçün Batabat-Salvartı yaylağından çəkilən boru xəttinin uzunluğu isə 35 kilometrdir. Zavoda gələn su əvvəlcə mikrotəmizləyici qurğuya verilir və hər birinin tutumu 250 ton olan qapalı hovuzlara yığılır. Hovuzlarda su 2 gün saxlanılır, sonra filtrdən keçirilərək istehsal sexinə verilir. Suyu boşaldıqdan sonra hovuzlar xüsusi maddələrlə yuyulur, dezinfeksiya edilir.

Mineral suyun butulkalara doldurulması üçün istehsal sahəsində Fransanın “SİDEL” şirkətinin istehsalı olan avadanlıqlar quraşdırılmışdır. Müəssisənin sexlərində müxtəlifhəcmli plastik və şüşə butulkalarda olmaqla, 10 çeşiddə mineral su istehsal olunur.

Zavodda məhsulun keyfiyyətinə ciddi nəzarət olunur. Burada Almaniya istehsalı olan müasir avadanlıqlarla təmin edilmiş xüsusi laboratoriya qurulmuşdur. Laboratoriyada suyun minerallıq dərəcəsi, qələviliyi, ümumi analizləri yoxlanılır, keyfiyyətə zəmanət verilir. Bunun nəticəsidir ki, “Badamlı” mineral suyu keçirilən beynəlxalq sərgilərdə yüksək qiymətləndirilir. Zavodda tələbata uyğun olaraq, 0,5, 1, 1,5 litrlik plastmas butulkalarda qazlı və qazsız, 0,3, 0,6 litrlik şüşə butulkalarda qazlı, 5 və 19 litrlik plastmas taralarda qazsız olmaqla, ümumilikdə, cari ilin ilk 4 ayında 1 milyon 100 min ədəd su istehsal edilmiş, 36 min 600 ədədi muxtar respublika ərazisində, 75 min 500 ədədi Bakı şəhərində və ölkəmizin müxtəlif bölgələrində satışa çıxarılmışdır. “Badamlı” mineral süfrə suyunun muxtar respublika ərazisində satışı “Gəmiqaya Bərəkət Bazarlama” MMC, Bakı şəhərində və ölkəmizin digər regionlarında isə “Gəmiqaya Holdinq” Şirkətlər İttifaqının Bakı Satış Mərkəzi vasitəsilə həyata keçirilir. İstehsal olunan məhsulun ticarət obyektlərinə vaxtında çatdırılması da diqqət mərkəzində saxlanılmış, müəssisəyə Almaniya istehsalı olan “Mercedes-Benz Axor” markalı yük avtomobilləri alınmışdır. Həmçinin Avropa ölkələrində və digər xarici ölkələrdə bu əvəzsiz təbii sərvətimizin satışını təmin etmək üçün möhkəm baza yaradılmışdır.

“Gəmiqaya Mineral Sular” Məhdud Məsuliyyətli Cəmiyyətində bütün istehsal prosesi İSO keyfiyyətli idarəetmə sistemi və qida təhlükəsizliyinin tələblərinə tam uyğun şəkildə təşkil edildiyi üçün müəssisə İSO-22000-2005 və İSO-9001-2008 sertifikatına uyğunluğu təsdiq olunaraq sertifikatlaşdırılmışdır. Bu da “Badamlı” mineral süfrə suyunun yüksəkkeyfiyyətli istehsalının göstəricisi və dünya bazarına girişinin təminatıdır. “Badamlı” mineral suyunun xarici ölkələrə ixrac olunması istiqamətində həyata keçirilən ardıcıl və məqsədyönlü tədbirlər öz bəhrəsini vermiş, “Gəmiqaya Mineral Sular” Məhdud Məsuliyyətli Cəmiyyəti “Biznesdə Uğur-2013” mükafatının ilin ixracatçısı nominasiyası üzrə qalibi olmuşdur. Cari ilin ötən dövründə bağlanmış müqaviləyə əsasən, 21 min 200 ədəd mineral suyun Rusiya Federasiyasına göndərilməsi təmin edilmişdir. Qeyd edək ki, “Gəmiqaya Mineral Sular” Məhdud Məsuliyyətli Cəmiyyətinin iqtisadi əlaqələri daha da genişləndirilmiş, cari ilin ilk 4 ayında istehsal edilən “Badamlı” mineral süfrə suyunun 30 faizi muxtar respublika ərazisində satışa çıxarılmış, 68 faizi Bakı şəhərinə və müxtəlif regionlara, 2 faizi isə Rusiya Federasiyasına ixrac olunmuşdur. Zavodda istehsal edilən məhsulun digər xarici ölkələrə ixrac olunması istiqamətində işlər davam etdirilir.

✍ **Kərəm HƏSƏNOV**

## Tarla seminar müşavirələri davam etdirilir

Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyi növbəti tarla seminar müşavirəsini Şərur rayonunun Xanlıqlar kəndində sahibkar Ramiz Həsənova məxsus qarğıdalı sahəsində keçirib. Müşavirəni giriş sözü ilə rayon İcra Hakimiyyəti başçısının müavini Rövşən İsgəndərov açaraq müşavirənin mahiyyətindən bəhs edib. Naxçıvan Muxtar Respublikası kənd təsərrüfatı nazirinin müavini Sahib İbrahimli əkinçilik məhsulları sırasında qarğıdalı bitkisinin əhəmiyyətindən danışıb, onun becərmə texnologiyası barədə məlumat verib. Nazirliyin mütəxəssisləri Məmmədqulu Səfərov və Yaşar Quliyev qarğıdalının becərilməsində mütərəqqi texnologiyaların tətbiqi, bu bitkinin sirayət oluna biləcəyi zərərverici və xəstəliklərə qarşı mübarizə tədbirləri barədə danışıblar.

Sonda mütəxəssislər sahibkarlar tərəfindən onlara verilən sualları cavablandıraraq fikir mübadiləsi aparıblar.

***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin mətbuat xidməti***

## İməciliklərdə yaşıllıqlara aqrotexniki qulluq göstərilmişdir

*Naxçıvan Muxtar Respublikasında həyata keçirilən kompleks quruculuq tədbirlərinin mühüm istiqamətlərindən biri də regionda ekoloji problemlərin həllinin, ətraf mühitin qorunmasının, təbiətin zənginləşdirilməsinin diqqət mərkəzində saxlanılmasıdır. Son 18 ildə diyarımızda yaşıllıq sahələrinin həcminin dəfələrlə artması, yurdumuzun yaşıllıqlar məskəninə çevrilməsi məhz belə tədbirlərin nəticəsidir. Bu sahədə görülən işlərin kəmiyyət və keyfiyyətinin yüksəldilməsi, mövcud problemlərin həlli istiqamətində görülən tədbirlər davamlı xarakter almış, yeni əkilən ağacların suvarılmasında damcı üsulunun tətbiqi genişləndirilmiş, xeyli meyvə bağları, yaşıllıq zolaqları salınmışdır.*

Cari ildə də bu tədbirlər mütəşəkkilliklə davam etdirilir, meyvə bağlarına, yaşıllıq zolaqlarına, gülkarlıq sahələrinə aqrotexniki qulluq göstərilir.

Mayın 31-də keçirilən iməciliklər də yüksək səviyyədə təşkil olunmuşdu.

Naxçıvan şəhərinin sakinləri Naxçıvan-Batabat və Naxçıvan-Sədərək magistral yollarının kənarındakı və şəhərin müxtəlif ərazilərindəki yaşıllıqlara aqrotexniki qulluq göstərmiş, yaşıllıqlar suvarılmış və alaq otlarından təmizlənmişdir.

Muxtar respublikanın ən böyük bölgələrindən biri olan Şərur rayonunun sakinləri Naxçıvan-Sədərək magistral yolunun Cəlilkənd, Düdəngə və Zeyvə kəndlərindən keçən hissəsində, Şərur şəhərinin park və xiyabanlarında yaşıllıqlara aqrotexniki qulluq göstərmiş, yaşıllıqlar suvarılmış və alaq otlarından təmizlənmişdir.

İməcilik günü Babək rayonunun ərazisində də qələbəlik müşahidə edilmişdir. Rayon sakinləri muxtar respublikanın ekologiyasına öz töhfələrini verməyə çalışmış, Naxçıvan-Ordubad magistral yolunun kənarlarında, Qoşadizə kəndindəki 5 hektarlıq meyvə bağında, Babək qəsəbəsi mərkəzindəki park və xiyabanlarda yaşıllıqlara aqrotexniki qulluq göstərmiş, yaşıllıq sahələri alaq otlarından təmizlənərək suvarılmışdır.

Bağlar diyarı Ordubad rayonunda da iməciliklər mütəşəkkilliklə keçirilmiş, Naxçıvan-Ordubad magistral yolunun kənarlarında, Qazi massivində, mərkəzi xəstəxananın və elektrik şəbəkəsinin, kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliklərin və məktəblərin həyətlərində, Ordubad şəhərinin park və xiyabanlarında yaşıllıqlara aqrotexniki qulluq göstərilmişdir.

Culfalılar Naxçıvan-Ordubad magistral yolunun kənarında, Culfa şəhərinin park və xiyabanlarında, ümumtəhsil müəssisələrinin həyətlərində, kənd və xidmət mərkəzlərinin ətrafında olan yaşıllıqlarda çalışmışlar.

Kəngərli rayonunun sakinləri Naxçıvan-Sədərək magistral yolunun Xok və Yeni Kərki kəndlərindən keçən hissəsində yaşıllıqlara aqrotexniki qulluq göstərmiş, ağaclar suvarılmışdır.

Şahbuz rayonunda Naxçıvan-Batabat magistral yolunun kənarlarındakı bağlara aqrotexniki qulluq göstərilmiş, su arxları çəkilərək ağaclar suvarılmış, Şahbuz şəhərinin park və xiyabanlarında 300 ədəd gül kolu, 100 ədəd həmişəyaşıl ağac əkilmişdir.

Sədərəklilər Heydərabad qəsəbəsindəki 1,8 hektarlıq bağda, Sədərək kəndində 2 nömrəli tam orta məktəbin, mərkəzi xəstəxananın həyətlərində və Qaraağac kəndində yol kənarlarındakı yaşıllıqlara aqrotexniki qulluq göstərmişlər.

Həmin gün muxtar respublikamızın bütün bölgələrində ahıl vətəndaşların həyətlərində təmizlik, abadlıq işləri aparılmışdır.

**Xəbərlər şöbəsi**

*İyun ayının 1-də Tələbə Qəbulu üzrə Dövlət Komissiyası ali və orta ixtisas təhsili müəssisələrinə qəbul olunmaq istəyən abituriyentlər üçün 2014-cü ilin sonuncu sınaq imtahanını keçirmişdir.*

## TQDK sonuncu sınaq imtahanını keçirmişdir

Muxtar respublikada Naxçıvan şəhərində və rayon mərkəzlərində keçirilən imtahana TQDK-nın Naxçıvan Muxtar Respublikası üzrə Regional Bölməsinin bazasından 24 imtahan rəhbəri və 138 nəzarətçi cəlb olunmuşdu. İmtahanda iştirak etmək üçün yazılış internet vasitəsilə aparılmış və muxtar respublika üzrə 2466 abituriyent qeydiyyatdan keçmişdir.

İmtahan başlanmazdan əvvəl bir neçə gənclə həmsöhbət oldum. Vilayət Seyidova yaxınlaşıram. Naxçıvan şəhər 7 nömrəli tam orta məktəbin məzunudur. O dedi:

– Sonuncu sınaq imtahanıdır. Bütün sınaq imtahanlarında iştirak etmişəm. Bu il iştirak etdiyim sınaq imtahanlarında 600 balı keçmişəm. Bu sınaq imtahanında zəif bildiyim mövzuları dəqiqləşdirib qəbul imtahanına tam hazır vəziyyətdə getmək istəyirəm. Hədəfim 670-dən yuxarı bal toplamaqdır.

7 nömrəli tam orta məktəbdən olan Əlövsət Mahmudov və Səidə Novruzova da sınaq imtahanlarında yüksək bal toplayan gənclərimizdəndir.

3 nömrəli tam orta məktəbin məzunu Sevinc Sadiqovanın dediklərindən:

– Sınaq imtahanında 600 balı keçirəm. Amma hələ də bu nəticə məni qane etmir. Ən böyük arzum tələbə adını qazanmaq və Prezident təqaüdünə layiq görülməkdir. Bunun üçün qəbul imtahanına az bir müddət qalmasına baxmayaraq, gecə-gündüz çalışıram.

İmtahan başa çatdıqdan sonra TQDK-nın Naxçıvan Muxtar Respublikası üzrə Regional Bölməsinin rəhbəri Sabir Məmmədov imtahana ayrılan 3 saat ərzində heç bir qayda pozuntusuna yol verilmədiyini qeyd etdi.

İmtahandan yenicə çıxmış Şəhla Hüseynova ilə həmsöhbət olduq. Öyrəndik ki, 14 nömrəli tam orta məktəbin məzunudur. O dedi:

– İmtahanda sakitlik tam təmin edilmişdi. Sınaq imtahanına düşən suallardan gördüm ki, artıq qəbul imtahanına tam hazıram. Bütün sınaq imtahanlarında 600-dən yuxarı bal toplamışam. Arzum hüquqşünas olmaqdır. İnanıram ki, yaxın gələcəkdə bu arzuma çatacağam.

İmtahanın nəticələri TQDK-nın internet saytında yerləşdiriləcək.

✍ **Sara ƏZİMOVA**

## "Gülüstani-İrəm" əsəri müzakirə olunub

***Babək Rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemi Çeşməbasar kənd mədəniyyət evində Abbasqulu ağa Bakıxanovun "Gülüstani-İrəm" əsərinin müzakirəsini keçirmişdir. Tədbiri giriş sözü ilə Güznüt kənd mədəniyyət evinin direktoru Zülfüqar Babayev açmışdır.***

Müzakirədə çıxış edən Çeşməbasar kənd kitabxanasının müdiri Səkinə Məmmədova, Çeşməbasar kənd tam orta məktəbinin müəllimləri Bəsti Bədəlova və Könül Babayeva bildirmişlər ki, bu il ölkəmizdə xalqımızın ictimai-mədəni fikir tarixinin böyük nümayəndəsi, maarifçi, ensiklopedik yaradıcılığa malik alim, "Qüdsi" təxəllüslü şair və yazıçı Abbasqulu ağa Bakıxanovun anadan olmasının 220 illik yubileyi qeyd olunur. Abbasqulu ağa Bakıxanov elmin, mədəniyyətin ən müxtəlif sahələrinə aid zəngin bir irs yaratmışdır. Xalqın həyatında əsaslı dəyişikliklərə yol açmış maarifçilik ideyalarının bərqərar olmasında onun mühüm xidmətləri vardır. Azərbaycanın tarixi keçmişinin müasir dünya elmi səviyyəsində yeni, sistemli tədqiqi mərhələsi A.Bakıxanovun adı ilə sıx bağlıdır. A.Bakıxanovun elmi və bədii əsərləri bu gün də aktuallığını qoruyub saxlayır. Böyük alim və şəxsiyyətin əsərlərinin tədqiqinə və nəşrinə həmişə ehtiyac duyulacaqdır. Azərbaycan tarixinə Abbasqulu ağa Bakıxanov görkəmli maarifpərvər, Azərbaycan tarixşünaslığının elmi əsaslarını qoymuş filosof-alim, jurnalist, filoloq, astronomiya və coğrafiya kitablarının müəllifi



kimi daxil olmuşdur. A.Bakıxanovun ən məşhur əsəri "Gülüstani-İrəm" tarixi əsəridir. Əsər Azərbaycan tarixşünaslığının inkişafında böyük rol oynamışdır. Burada Azərbaycan tarixinin qədim zamanlardan 1813-cü ilədək olan dövrü əhatə olunmuşdur.

Müzakirədə kitabxana fəalları iştirak etmiş, əsər haqqında öz fikirlərini bildirmişlər.

✍ **Sona MİRZƏYEVA**

## Naxçıvan Dövlət Universitetinin komandası Pekində "Enactus" Dünya Kuboku uğrunda yarışlarda çıxış edəcəkdir

Mayın 30-31-də "Monolit Plaza" otelində beynəlxalq "Enactus" (Entrepreneurial Action Us – Bizim sahibkarlıq fəaliyyəti) proqramı üzrə IX milli yarışlar keçirilmişdir. Azərbaycan Gənclər və İdman Nazirliyinin, Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun və "Gənclər azad sahibkarlıq fəaliyyətində" (Enactus Azerbaijan) İctimai Birliyinin təşkilati dəstəyi ilə keçirilən yarışlarda ölkəmizin müxtəlif ali məktəblərinin tələbələrindən ibarət 10 komanda iştirak etmişdir.

Mayın 31-də IX milli "Enactus" yarışları başa çatmışdır. Münsiflər arasında səsvermənin nəticələrinə əsasən, Naxçıvan Dövlət Universitetinin komandası bu yarışların qalibi sayılmışdır. Bu komanda Pekində keçiriləcək "Enactus" Dünya Kuboku yarışlarında Azərbaycanı təmsil edəcəkdir.

"Enactus" proqramı çərçivəsində yarışlar keçirilməsinin məqsədi gəncləri sahibkarlıq fəaliyyəti sahəsinə cəlb etmək, azad sahibkarlıq ideyalarını tələbələr arasında təbliğ etmək, habelə tələbələrin təşkilati vərdişlərini, idarəçilik və komanda şəklində işləmək bacarıqlarını inkişaf etdirməkdir.

Azərbaycan 2005-ci ildən "Enactus" proqramına qoşulmuş və 2006-cı ildən dünya kuboku uğrunda mübarizədə iştirak etmək hüququ qazanmışdır.

**Xəbərlər şöbəsi**

## 2 iyul 2014-cü ildə açıq hərraca çıxarılacaq əmlaklar haqqında məlumat

| Sıra №-si | Hərraca çıxarılacaq əmlak | Əmlakın hüquqi ünvanı | Əmlakın ilkin satış qiyməti (manat) | Əmlakın 15 faiz güzəştli satış qiyməti (manat) | İlkin satış qiymətinin 5 faiz həcmində hesablanmış behin məbləği (manat) |
|---|---|---|---|---|---|
| 1 | 723,41 kv.m torpaq sahəsində yerləşən, 1 və 2 mərtəbəli, 12 otaqlı, 463,83 yaşayış, 7,65 kv.m qeyri-yaşayış, 123,0 kv.m köməkçi sahədən ibarət 13 saylı fərdi yaşayış evi | Naxçıvan şəhəri, $7^{A}$ məhəlləsi | 165.000,00 | 140.250,00 | 7012.50 |
| 2 | Ümumi sahəsi 402,3 kv.m, 241,9 kv.m yaşayış sahəsi olan fərdi yaşayış evi | Şərur rayonu, Zeyvə-Düdəngə kəndi | 69.000,00 | 58.650,00 | 2932.50 |
| 3 | 291,0 kv.m torpaq sahəsində yerləşən, 237,76 kv.m ümumi, 169,08 kv.m əsas, 68,68 kv.m köməkçi sahədən ibarət qeyri-yaşayış binası (inzibati bina) | Naxçıvan şəhəri, Babək məhəlləsi | 75.000,00 | 63.750,00 | 3187.50 |
| 4 | 600 kv.m torpaq sahəsində yerləşən, 527,9 kv.m ümumi, 168,00 kv.m əsas, 359,9 kv.m köməkçi sahədən ibarət qeyri-yaşayış binası (çörək və qənnadı məhsulları sexi) | Naxçıvan şəhəri, Ə.Qəmküsar küçəsi | 120.000,00 | 102.000,00 | 5100.00 |

Hərracda qanunvericiliyə müvafiq olaraq alıcı hesab edilən, sifarişi və digər zəruri sənədləri təqdim etmiş hüquqi və fiziki şəxslər iştirak edə bilərlər. Hərraca çıxarılan əmlakların ilkin satış qiymətinin 5 % məbləğində beh "Bank of Azerbaijan" ASC 12 saylı Naxçıvan filialında olan AZ 98 AZEJ 00800450190909001 nömrəli hesabına və "Kapital Bank" ASC Naxçıvan Muxtar Respublikası Baş İdarəsinin AZ 87 AİİB45090249443100007500 nömrəli hesabına ödənilməlidir.

Hərraclarda iştiraka görə hərrac iştirakçılarından qanunvericilikdə müəyyən edilmiş iştirakçı haqqı Auksion Mərkəzinin Maliyyə Nazirliyindəki №AZ 21 NABZ12360100000000005944 nömrəli hesabına köçürülür.

Sifarişlər Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində (Heydər Əliyev prospekti 6) 27 iyun 2014-cü il tarixə qədər hər gün saat $9^{00}$-dan $18^{00}$-dək qəbul olunacaqdır. Məlumat dərc olunduğu gündən auksionda iştirak etmək arzusunda olan hüquqi və fiziki şəxslər satışa çıxarılan müəssisənin sənədləri ilə Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində tanış ola bilərlər.

Auksionda iştirak etmək üçün komissiyaya aşağıdakı sənədlər təqdim olunur:

- *Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən təsdiq edilmiş formada sifariş;*
- *kommersiya banklarına ödəniləcək behin qəbzi;*
- *hüquqi şəxslər üçün təsis sənədlərinin müəyyən olunmuş qaydada təsdiq edilmiş surəti;*
- *fiziki şəxslər üçün şəxsiyyəti təsdiq edən sənədin surəti.*

Hərrac 2 iyul 2014-cü il tarixdə saat $10^{00}$-da Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində keçiriləcək.

***Əlavə məlumatı Auksion Mərkəzindən ala bilərsiniz.***
***Əlaqə telefonu: 545-01-38***

### İtmişdir

Babək rayonunun Şıxmahmud kənd sakini Məmmədov Bayram Hüseyn oğlunun adına Naxçıvan Muxtar Respublikası Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi tərəfindən verilmiş A-003535 nömrəli torpağın planı və ölçüsü itdiyindən etibarsız sayılır.

### Allah rəhmət eləsin

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin kollektivi iş yoldaşları Hüseyn Əsgərova, oğlu **ELXANIN** vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Naxçıvan Şəhər Vergilər İdarəsinin rəisi Azər Nağıyev və idarənin kollektivi iş yoldaşları Orxan Əsgərova, qardaşı **ELXANIN** vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurasının kollektivi iş yoldaşları **ELXANIN** vaxtsız vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Xaləddin Rüstəmov ailəsi ilə birlikdə Hüseyn Əsgərova, oğlu **ELXANIN** vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

"Şərq qapısı" qəzetinin kollektivi Naxçıvan Şəhər Abadlıq vəTəmir-Tikinti İdarəsinin rəisi Xaləddin Rüstəmova, anası **BƏYİM XANIMIN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasının baş həkimi Rəhim Rəhimov və xəstəxananın kollektivi iş yoldaşları Həsən Qasımova, atası **BƏHLULUN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Muxtar Respublika Xəstəxanasının baş həkimi Əli Ələsgərov və xəstəxananın kollektivi Hüseyn Əsgərova, oğlu **ELXANIN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin Tibbi yardımın təşkili şöbəsinin əməkdaşlarından İbrahim Ağayev, Süleyman Cəfərov, Sabir Novruzov və Zülfiyyə Həsənova iş yoldaşları Hüseyn Əsgərova, oğlu **ELXANIN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Şəhər Elektrik Şəbəkəsinin kollektivi Xaləddin Rüstəmova, anası **BƏYİM XANIMIN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


**ŞƏRQ qapısı**
**Baş redaktor:** TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 489